# “Bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır”

***Azərbaycan Ordusunun sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatı ölkəmizin tam qələbəsi və düşmənin kapitulyasiyası ilə nəticələndi. Bununla da Vətən müharibəsi başa çatdı. Azərbaycan bu döyüşdə parlaq qələbə qazandı, işğal aldındakı torpaqlarımızı yağılardan təmizlədi. Müzəffər ordumuzun hər bir əsgəri, hər bir zabiti müharibədə qəhrəmancasına döyüşdü, düşmənin torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərdi, yaralandı, öz həyatınızı risk altına atdı, lakin məqsədi uğrunda inadından dönmədi, əzmlə, cəsarətlə zəfər yürüşünü son nəticəyə qədər davam etdirdi. Budur, artıq Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ərazi bütövlüyümüzü şərtləndirən, işğalçılardan təmizlənən torpaqlara–rayon və şəhərlərimizə səfər edir, zəfər yürüşünün simvoluna çevrilən Azərbaycan bayrağını dalğalandırır, barbarcasına dağıdılan ərazilərimizdə tikinti, abadlıq-quruculuq işlərinin başlanması ilə bağlı tapşırıqlarını verir.***

*(ardı 3-cü səhifədə)*

# “Bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır”



> *Yenə də Azərbaycan vətəndaşları burada yaşayacaqlar, quracaqlar, yaradacaqlar. Amma bugünkü tarix heç vaxt silinməyəcək. Erməni vəhşiliyinin canlı şahidləridir, bax, bu dağılmış evlər. Bu evlərdə Azərbaycan vətəndaşları yaşayıb, mülki vətəndaşlar yaşayıb. Mənfur düşmən gəlib onları öz torpaqlarından didərgin salıb, onların binalarını dağıdıb, onların əmlakını mənimsəyib, talayıb. Düşmən oğru, əxlaqsız, vicdansız bir düşməndir. Mən bir daha demək istəyirəm ki, bizim parlaq Qələbəmiz təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası deyil. Bu, şərlə xeyir qüvvələrinin mübarizəsidir. Şər qüvvələri məğlub olub, amma biz qalib gəlmişik. Çünki biz qurub yaradanıq. Ermənilər isə bax, bunları ediblər, dağıdıblar.*
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**




*(əvvəli 1-ci səhifədə)*

### *“İkinci Qarabağ müharibəsində qazanılmış qələbə böyük tarixi əhəmiyyətə malikdir”*

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın noyabrın 16-da işğaldan azad edilən Füzuli və Cəbrayıl rayonlarına, o cümlədən, Füzuli və Cəbrayıl şəhərlərinə səfərləri, ilk növbədə, onunla əlamətdar oldu ki, həmin gün dövlətimizin başçısı Şuşa şəhərinə yol çəkilişi ilə bağlı göstəriş verməklə magistralın inşasına başlandı.

Ali Baş Komandan layihənin icrasının gedişi ilə tanış olduqdan sonra Azərbaycan xalqını ürəkdən təbrik edirərək, bildirdi ki, bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır.

Prezident İlham Əliyev son illər ərzində ölkəmizdə bir çox yolun inşa edildiyini, 2004-cü ildən bu günə qədər isə 16 min kilometrdən çox keyfiyyətli avtomobil yolu çəkildiyini və bu göstəriciyə görə, Azərbaycanın dünyada qabaqcıl yerlərdən birində qərarlaşdığını vurğuladı.

Ölkə rəhbəri sözügedən yolun bizi Şuşaya apardığna görə, xüsusi əhəmiyyət daşıdığını, eyni zamanda, müvafiq tikintinin işğaldan azad edilən torpaqlarda reallaşdırılan birinci layihə olduğunu diqqətə çatdırdı. Ali Baş Komandan daha sonra dedi: “Şuşa işğaldan azad olunandan sonra artıq düşmən dərk etdi ki, bundan sonra bizə qarşı müqavimət göstərmək heç bir əhəmiyyət kəsb etməyəcək. Şuşa işğaldan azad olunandan bir gün sonra qəhrəman Azərbaycan Ordusu daha 70-dən çox yaşayış məntəqəsini işğalçılardan azad edib və əslində, bu, düşmənə vurulan son zərbə idi. Təsadüfi deyil ki, noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzalamışdır. Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir”.

Prezident İlham Əliyev həmin gün-noyabrın 16-da artıq quruculuq işlərinə başlanıldığını, Qələbə günündən 8 və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra bu yerdən – Alxanlı qəsəbəsindən Füzuli-Şuşa avtomobil yolunun çəkilişinə start verildiyini, layihəyə əsasən magistralın çox rahat və geniş olacağını, bunun isə mənzilbaşına rahat gedib-gəlməyə imkan yaradacağını qeyd etdi.

Dövlətimizin başçısı bildirdi ki, İkinci Qarabağ müharibəsində Azərbaycan tərəfindən şanlı qələbə əldə olunub, işğal altındakı torpaqlar yağılardan təmizlənib. Düşmənin vurduğu ziyanın da hazırda dəqiq hesablanmasına başlanılıb. Eyni zamanda, zərərçəkmiş bütün insanların dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacaqları, bütün bu işlərin planlı şəkildə aparılacağı, ilk növbədə, ziyanın hesablanacağı, dəqiq uçotun aparılacağı, sonra isə bərpa-yenidənqurma işlərinə start veriləcəyi diqqətə çatdırılıb.

Dövlətimizin başçısı çıxışında işğaldan azad olunan torpaqlarda düşmənin bütün infrastrukturumuzu dağıtdığını, kənd və şəhərlərimizi demək olar ki, yerlə-yeksan etdiyini, bununla da qəsbkar vəhşiliyini, rəzilliyini bütün dünyaya göstərdiyini vurğuladı.

Ali Baş Komandan İlham Əliyev Azərbaycanın hazırda münaqişənin siyasi həlli mərhələsini yaşadığını da xatırladıb: “Bu mərhələdə də Azərbaycan istədiyinə nail olur və olacaq. Münaqişənin hərbi mərhələsi başa çatıb. Şuşanın azad edilməsi və noyabrın 9-da daha 70-dən çox yaşayış məntəqəsinin işğaldan azad edilməsi münaqişənin hərbi mərhələsinə son qoyub. Mən münaqişənin və İkinci Qarabağ müharibəsinin əvvəlində demişdim, bu gün də bunu böyük qürur hissi ilə bir daha deyirəm ki, məsələnin hərbi-siyasi həll yolları var idi və Azərbaycan bunu döyüş meydanında sübut edib. Biz düşməni məcbur etdik ki, kapitulyasiya aktına imza atsın və beləliklə, bizim bu günə qədər işğal altında qalan Ağdam, Laçın və Kəlbəcər rayonları da yaxın günlərdə Azərbaycana qayıdır. Amma baxın, görün, mənfur düşmən hansı vəhşiliklər törədir – evləri yandırırlar, məktəbləri yandırırlar, ağacları qırırlar, elektrik xətlərini qırırlar. Bütün dünya bunu görür, bütün aparıcı beynəlxalq kanallar bunu göstərir. Nə vicdan var, nə utanmaq var, nə əxlaq var. Ona görə İkinci Qarabağ müharibəsində qazanılmış qələbə böyük tarixi əhəmiyyətə malikdir. Bu, təkcə Azərbaycanın öz doğma torpaqlarının işğalçılardan azad edilməsi məsələsi deyil. Bu, eyni zamanda, bütün dünyaya, bütün işğalçılara göstərir ki, onların sonu bax, belə ola bilər. İşğalçıların, qəsbkarların sonu belə olacaq”.

### *İşğaldan azad edilən torpağımızın hər qarışı tezliklə gülüstana çevriləcək*

Bu gün işğaldan azad edilən yaşayış məntəqələrimizdə ermənilər tərəfindən dağıdılan infrastrukturun bərpası istiqamətdə proqramlar hazırlanır. Şuşa, Kəlbəcər, Laçın və digər rayonlarımızda dağıdılan məscidlərin, tarixi abidələrin, məktəblərin yenidən bərpa olunacağı, Şuşa şəhərinin işğaldan öncə olduğu kimi, Azərbaycanın yenidən əsas turizm mərkəzinə çevriləcəyi, yağı tapdağından qurtulan torpaqlarda kənd təsərrüfatının inkişaf etdiriləcəyi haqqında tədbirlər planı üzərində işlənilir.

Dövlətimizin başçısı Füzuli və Cəbrayıl rayonlarına səfəri zamanı bu barədə fikir bildirərək deyib: “Onlar hesab edirdilər ki, bu dağıntılardan sonra Azərbaycan əhalisi heç vaxt buraya qayıtmayacaq. O məqsədlə buranı dağıdıblar. Amma səhv ediblər. Biz qayıtmışıq. Bax, durmuşuq burada, öz doğma torpağımızda, Cəbrayıl şəhərində. Bütün buraları bərpa edəcəyik.

Yeni böyük baş plan tərtib ediləcək. Müvafiq göstərişlər verilib. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək. Burada bütün inzibati binalar, ictimai binalar, məktəblər, tibb ocaqları yaradılacaq. Bütün infrastruktur yaradılacaq. Küçələr salınacaq, parklar, xiyabanlar salınacaq. Bütün şəhərlərdə qələbə abidələri ucaldılacaq və həyat qayıdacaq”.

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan vətəndaşları yenə də bu tarixi torpaqlarımızda yaşayacaq, qurub- yaradacaqlar. Amma bugünkü tarix heç vaxt unudulmayacaq. Bu dağılmış, yandırılmış evlər, viran qoyulmuş kənd və şəhərlər erməni vəhşiliyinin canlı şahidləridir. Bu evlərdə, bu şəhərlərdə yaşayacaq insanlarımızın Vətən sevgisi ilə hər qarış torpağımız tez bir zamanda canlanacaq, yurd yerlərimiz gülüstana çevriləcək.

Xatırladaq ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin noyabrın 16-da səfərdə olduğu Füzuli və Cəbrayıl rayonlarında işğaldan əvvəl qaynar bir həyat yaşanıb. İndi o vəziyyətdən əsər-əlamət belə yoxdur. Hər yer dağıntı, xaraba halındadır. Füzuli rayonuna gedən yolun ətrafında bir vaxtlar respublikamızın digər yerlərində olduğu kimi, inkişaf, tərəqqi hökm sürüb, əhali firavan və sülh içində yaşayıb. Ancaq torpaqlarımız işğala məruz qaldıqdan sonra azərbaycanlılar dədə-baba yurdlarından qovulublar, yaşayış məntəqələrimiz erməni vandalları tərəfindən yerlə-yeksan edilib. Ermənilər daşı daş üstündə qoymayıblar, azərbaycanlıların tikdiyi evləri vəhşicəsinə dağıdıblar.

### *“Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib”*

İşğal altında olduğu illərdə Füzuli rayonu da erməni barbarlığının qurbanı olub. Prezident İlham Əliyev yağılardan xilas edilən Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldırdandan sonra qəsbkarın daşı daş üstdə qoymadığı digər şəhərlərimizdə olduğu kimi, burada da dəhşətli dağıtılar, talanlar törətdiyini diqqətə çatdırıb: “Biz Füzuliyə qayıtmışıq. Ancaq indi yol boyunca dağıdılmış kəndləri və Füzuli şəhərini dağılmış vəziyyətdə görəndə adamın ürəyi ağrıyır. Vəhşilər bizim şəhərimizi nə günə salıblar?! Dağıdıblar, evləri dağıdıblar, bütün infrastrukturu dağıdıblar, bir dənə də salamat bina yoxdur. Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir və bütün dünyaya biz bunu göstərəcəyik. Təkcə Füzuli yox, Ağdam şəhəri nə gündədir, başqa şəhərlər. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib. Hər şeyi dağıdıb, talan edib, bizim mədəni, tarixi, dini irsimizi silmək istəyib, ancaq istədiyinə nail ola bilməyib. Çünki biz gəlməli idik, qayıtmalı idik. Gəlmişik və qayıtmışıq. Düşməni qovmuşuq torpaqlarımızdan, Azərbaycanın Dövlət Bayrağını ucaltmışıq. Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu biz yaşamışıq, bizim xalqımız yaşayıb”.

Ölkə rəhbəri Füzuli şəhəri və rayonunun erməni faşistləri tərəfindən tamamilə dağıdıldığını, adının dəyişdirildiyini, bütün dünyanın bu barbarlığa, vandalizmə 30 il səssiz qaldığını, biganəlik göstərdiyini, belə bir halın isə faktiki olaraq erməni işğalını möhkəmləndirdiyini vurğulayıb: “Bizi sanki bu vəziyyətlə barışmağa sövq edirdilər, sülh yolu ilə məsələ həll olunsun, ildən-ilə, 30 il ərzində biz eyni sözləri eşidirdik – münaqişənin hərbi həlli yoxdur, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Amma biz sübut etdik ki, münaqişənin həlli var, o cümlədən, hərbi həlli var. Bizim qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına biz bunu bütün dünyaya sübut etmişik, münaqişənin hərbi həlli var və biz buna nail olmuşuq. Əgər bu hərbi həll olmasaydı, düşmən kapitulyasiya aktını imzalamazdı...”.

Prezident İlham Əliyev çıxışında 1990-cı illərin əvvəllərində Azərbaycan rəhbərliyinin ordu quruculuğuna fikir verməməsini, ölkəmizi xaosa, anarxiyaya sürüklədiyini, nəticədə respublikada vətəndaş müharibəsinin başladığını, hətta AXC-Müsavat cütlüyünün öz əsgərlərini əsir götürdüyünü, Gəncəni bombaladığını xatırladıb, məhz elə buna görə də torpaqların işğala məruz qaldığını vurğulayıb. Dövlətimizin başçısı o illəri, o acınacaqlı şəraiti indi Ermənistan əhalisinin yaşadığını diqqətə çatdırıb.

### *Xudafərində tarixi anlar yaşandı*

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva səfər çərçivəsində Xudafərin körpüsünə də gəliblər. Prezident İlham Əliyev burada tariximizin səhifələrinə qızıl hərflərlə yazılacaq bir hadisəni rəsmiləşdirib– Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırıb.

Dövlətimizin başçısının bayrağımızı tarixi Xudafərin körpüsündə qaldırması Azərbaycan üçün qürur və fəxarətdir. Çünki xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxan Xudafərin həm də milli qürurumuz, milli kimliyimizdir.

*Vaqif BAYRAMOV,*
*“Xalq qəzeti”*